# YUSİFOV ROMAN YASƏF OĞLU



28 iyul 1973-cü ildə Şabran (keçmiş Dəvəçi) rayonunda anadan olmuşdur. 1990-cı ildə orada orta təhsilini başa vurmuş, 1992-ci ildə Milli Orduya çağırılmışdır. Bir müddət Naxçıvanda hərbi təlim keçdikdən sonra Sədərək rayonuna göndərilən R.Yusifov vətən qarşısında borcunu mərdliklə yerinə yetirir. 1992-ci ilin oktyabr ayında yaralanmış, müalicə aldıqdan sonra xidmətini yenidən davam etdirmişdir. Hərbi kurs keçərək kiçik leytenant rütbəsi alan Roman taqım komandiri təyin edilmişdir. 17 mart 1995-ci ildə, ölkədə sabitlik pozulduğu bir vaxtda dövlət çevirilişinə cəhdin qarşısının alınmasında iştirak edən Roman Yusifov qəhrəmancasına həlak olmuşdur. Şabran rayonunun Qələgah kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə kiçik leytenant Yusifov Roman Yasəf oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Vaxtilə yaşadığı küçə və təhsil aldığı Şabran şəhər 2 saylı məktəb-lisey 1995-ci ildən onun adını daşıyır. Həmçinin məktəb-liseydə qəhrəmanın büstü qoyulmuşdur.